## İstehlakçı hüquqlarının pozulmasına görə cəzalar sərtləşdirilib

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanunların qüvvəyə minməsi nəticəsində ölkəmizdə istehlakçı hüquqlarının pozulmasına görə cəzalar sərtləşdirilib. İnzibati Xətalar Məcəlləsinə yeni daxil edilmiş 228.0.13-cü maddəyə əsasən, qanunvericilikdə nəzərdə tutulan hüquqlarla müqayisədə istehlakçının hüquqlarını məhdudlaşdıran şərtlərin müqavilələrə daxil edilməsi inzibati xəta tərkibi yaratmaqla istehlakçıların hüquqlarının pozulması kimi qiymətləndirilir və bu cür hərəkətlərə yol verən vəzifəli şəxslərə 1500 manatdan 2000 manatadək, hüquqi şəxslərə isə 4000 manatdan 5000 manatadək miqdarda cərimənin tətbiq edilməsi nəzərdə tutulur.

İnzibati Xətalar Məcəlləsinin 231-ci maddəsinə edilmiş yeni dəyişikliklərə görə, («İstehlakçıları aldatma») malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair istehlakçıların aldadılması inzibati xəta hesab edilir. Bu cür inzibati xətanı törədən fiziki şəxslərə 600 manat, vəzifəli şəxslərə 1000 manat, hüquqi şəxslərə isə 3000 manat miqdarında cərimə sanksiyası tətbiq edilir.

Qanunvericilikdə edilən dəyişikliklərə əsasən, istehlakçıların mal (iş, xidmət) haqqında məlumat almaq hüququnun pozulmasına, yəni istehlakçıya satılan mal (iş, xidmət) barəsində qanunla müəyyən edilmiş zəruri məlumatların verilməməsinə görə təqsirli vəzifəli şəxslərin 200 manat, hüquqi şəxslərin isə 400 manat miqdarında cərimə edilməsi nəzərdə tutulur.

«Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunla həmin məcəllənin 200-cü maddəsinin sanksiyası xeyli sərtləşdirilib. Belə ki, istehlakçıları aldatma, yəni mal satan və ya əhaliyə xidmət göstərən təşkilatlarda, həmçinin ticarət (xidmət) sahəsində fərdi sahibkar qismində qeydə alınmış fiziki şəxslər tərəfindən malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, habelə istehlak xüsusiyyəti və ya keyfiyyətinə dair istehlakçıları xeyli miqdarda (40 manatdan 500 manatadək) aldatma 3000 manatdan 5000 manatadək miqdarda cərimə və ya 180 saatdan 240 saatadək ictimai işlərlə cəzalandırılır.

Eyni əməllər təkrar törədildikdə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə və külli miqdarda (500 manatdan yuxarı) ziyan vurmaqla törədildikdə 5000 manatdan 7000 manatadək cərimə və ya üç ilədək müddətə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması tətbiq edilir.

Bilə-bilə pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya belə məhsulların satışı, onların keyfiyyətsiz olmasının gizlədilməsi zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda bu hallara yol verən təsərrüfat subyekti 7000 manatdan 9000 manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 200.4-cü maddəsinə əsasən eyni əməllər ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda təqsirli şəxslər 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır.

Rəşad SADIQOV